# Azərbaycanın xarici iqtisadi əlaqələri getdikcə genişlənir

**Dünya dövlətləri iqtisadi inteqrasiya yolu ilə öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində əhalinin rifahını yüksəltməyə səy göstərirlər. Bunun üçün bir çox hallarda beynəlxalq iqtisadi əlaqələrdən istifadə etmək lazım gəlir. Xarici dövlətlərlə qurulan həmin iqtisadi əməkdaşlığın inkişafı ilk növbədə ölkələrin qarşılıqlı əlaqələrinin genişləndirilməsini tələb edir. Bu zaman da əsas istiqamətlərdən biri beynəlxalq iqtisadiyyatı tənzimləyən müxtəlif təşkilatlarla işgüzar əlaqələr yaratmaqdan ibarət olmalıdır.**

Bu baxımdan, İqtisadiyyat Nazirliyinin atdığı addımlar intensivliyi və dinamikliyi ilə seçilir. Bir neçə gün əvvəl iqtisadiyyat nazirinin müavini Anar Axundovun rəhbərlik etdiyi nümayəndə heyəti Serbiyaya səfər çərçivəsində Belqradda bu ölkənin dağ-mədən və energetika naziri Dubravka Cedoviç-Handanoviçlə görüşüb. Görüşdə SOCAR-ın və Serbiyanın müvafiq dövlət şirkətlərinin nümayəndələri iştirak ediblər. Görüş zamanı bildirilib ki, Azərbaycan Avropanın, o cümlədən Serbiyanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir. Ölkələrimiz arasında iqtisadi əlaqələr qarşılıqlı hörmət və etibarlı tərəfdaşlıq prinsipləri əsasında genişlənir. Energetika sahəsi ikitərəfli iqtisadi tərəfdaşlığın gücləndirilməsində önəmli faktordur. Tərəflər iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi məsələləri, o cümlədən Serbiyanın Niş şəhəri yaxınlığında qaz elektrik stansiyasının birgə tikintisi imkanları barədə müzakirə aparıblar.

Təbii ki, ölkəmizin xarici iqtisadi əlaqələri təkcə neft-qazla məhdudlaşmır. Azərbaycanda qeyri-neft məhsullarının xarici bazarlara ixrac imkanlarının genişləndirilməsi məqsədilə mühüm işlər görülüb. Belə ki, qanunvericilik bazası təkmilləşdirilib, ixrac mallarının istehsalı stimullaşdırılıb, ixracın infrastruktur təminatı yaxşılaşdırılıb. Sənaye zonalarının genişləndirilməsi, həmçinin potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin sayının artırılması nəticəsində sözügedən istiqamətdə görülən işlərin səmərəliliyi artırılıb ki, bu da ölkəmizin ticarət sahəsində əməkdaşlıq coğrafiyasının genişləndirilməsinə səbəb olub.

Məhz bunun nəticəsində 2024-cü ilin yanvar-oktyabr aylarında ölkəmizin hüquqi və fiziki şəxsləri dünyanın 172 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, məhsullar 120 ölkəyə ixrac, 162 ölkədən isə idxal olunmuşdur.

Dövlət Gömrük Komitəsindən verilən məlumatlara əsasən, Dövlət Statistika Komitəsi bildirir ki, ölkənin xarici ticarət dövriyyəsinin 88,3 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, ABŞ, Avstraliya, Çexiya, Hindistan, Xorvatiya, İsrail, Gürcüstan, Portuqaliya, Birləşmiş Krallıq, Bolqarıstan, İran, Yunanıstan, Rumıniya, Belarus, Qazaxıstan, İsveçrə, Ukrayna, Yaponiya və Türkmənistanla aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür. Ölkəyə daxil olmuş məhsulların ümumi dəyərinin 18 faizi Çinin, 17,9 faizi Rusiyanın, 11,5 faizi Türkiyənin, 6,2 faizi Avstraliynın, 5,5 faizi ABŞ-nin, 4,1 faizi Almaniyanın, 3,1 faizi İranın, 2,7 faizi İtaliyanın, 2,2 faizi Belarusun, 2,1 faizi Yaponiyanın, 2 faizi Koreyanın, 1,7 faizi Qazaxıstanın, 1,6 faizi Tükmənistanın, hər biri 1,4 faiz olmaqla Ukrayna və İsveçrənin, 1,3 faizi Birləşmiş Krallığın, 1,2 faizi Fransanın, 1,1 faizi Hindistanın, hər biri 1 faiz olmaqla Özbəkistan və Kanadanın, 0,9 faizi Braziliyanın, 0,8 faizi İspaniyanın, 11,3 faizi isə digər ölkələrin payına düşmüşdür.

Bundan başqa, Azərbaycanın ixrac məhsullarının artırılması iqtisadi şaxələndirmə ilə bağlı hədəflərə nail olunması baxımından bu gün aktualdır. Yerli istehsalın dəstəklənməsi fonunda qeyri-neft ixrac imkanlarının artırılması əsas hədəf olaraq qalmaqdadır. Deyə bilərik ki, iqtisadiyyatın dayanıqlılığı praktik olaraq qeyri-neft sektorunun inkişafı ilə əlaqədardır. Ona görə də qeyri-neft sektorunun dəstəklənməsi ilə bağlı fəaliyyətlərin genişləndirilməsi olduqca vacibdir. Sözsüz ki, belə olan halda qeyri-neft sektoru üzrə ixracatın payının artırılması da prioritetdir. Bu baxımdan yanvar-oktyabr aylarında İtaliya, Türkiyə, Rusiya və Çexiyaya göndərilmiş məhsulların payı daha çox olmuşdur.

Qeyd edək ki, xarici iqtisadi əlaqələrin dinamik inkişafında Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və sistemli surətdə həyata keçirilən sənayenin inkişafına dair 2015-ci ildə qəbul olunmuş dövlət proqramı əhəmiyyətli rol oynayıb. Həmin proqram şübhəsiz ki, ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturuna malik sənaye zonalarının inkişafını sürətləndirib. Belə vəziyyət ölkənin ixrac qabiliyyətinin güclənməsinə, idxalı əvəz edən məhsulların istehsalının artırılmasına da əhəmiyyətli təsir göstərib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.-2024.- 30 dekabr (№ 290).- S.17.